«Atəşgah» Sığorta Şirkəti ASC

QİYMƏTLİ ƏŞYALARIN DAŞINMASI ZAMANI SIĞORTASI QAYDALARI

MÜNDƏRİCAT

ANLAYIŞLAR

Ümumi müddəalar

Maddə 1. Sığortanın subyektləri

Maddə 2. Sığorta sinfi və obyekti

Maddə 3. Sığorta riskləri

Maddə 4. Sığorta təminatından istisnalar

Maddə 5. Sığorta təminatının qüüvəyə minmə və qüvvədən düşmə vaxtları

Maddə 6. Sığorta məbləği və azadolma məbləği

Maddə 7. Sığorta haqqı və sığorta haqqının ödənilməsi

Maddə 8. Sığorta müddəti

Maddə 9. Sığorta müqaviləsinin bağlanma qaydası

Maddə 10. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası

Maddə 11. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

Maddə 12. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

Maddə 13. Riskin mahiyyətinin dəyişməsi və ya baş vermə ehtimalinin artması

Maddə 14. Tərəflərin hüquq və vəzifələri

Maddə 15. Sığorta ödənişinin verilməsi

Maddə 16. Subroqasiya hüququnun verilməsi

Maddə 17. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları

Maddə 18. Xoş məramlılıq öhdəliyi

Maddə 19. Məlumat və xəbərdarlıqlar

Maddə 20. Kommersiya və iş sirlərinin qorunması

Maddə 21. Mübahisələrin həlli

Maddə 22. Xüsusi şərtlər

ANLAYIŞLAR

Bu Qaydalarda və bu Qaydalar əsasında bağlanmış Sığorta müqavilələrində aşağıdakı əsas anlayışlardan istifadə olunur:

Sığortaçı - sığorta qanunvericiliyi əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, Sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan Sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

Sığortalı - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan, Sığorta müqaviləsinin tərəfi;

Sığorta olunan - Sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs;

Faydalanan şəxs - Sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs; Sığorta müqaviləsində Faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, Sığortalı və (və ya) Sığorta olunan Faydalanan şəxs sayılır.

Sığorta hadisəsi – qanunvericiliyə və ya Sığorta müqaviləsinə görə sığorta ödənişinin Sığortalıya, Sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

Sığortanın müddəti – sığorta risklərinin sığortalandığı müddət;

Sığorta tarifi – sığorta haqqının sığorta məbləğindən faizlə dərəcəsi;

Sığorta haqqı – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, Sığorta müqaviləsində nəzərdə tutulan qaydada Sığortalının Sığortaçıya ödəməli olduğu pul məbləği;

Azadolma məbləği - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və Sığortalının üzərində qalan hissəsi;

Sığorta ödənişi – sığorta hadisəsi baş verdikdə Sığorta müqaviləsinə uyğun olaraq Sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

Mühüm şərtlər –Sığorta müqaviləsində, yaxud Sığorta şəhadətnaməsində göstərilmiş və Sığortalı tərəfindən yerinə yetirilməməsi Sığortaçının sığorta ödənişi verməkdən imtina etməsi və ya Sığorta müqaviləsini, yaxud Sığorta şəhadətnaməsini ləğv etməsi üçün əsas olan şərtlər;

Sığortanın ərazisi - sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi (yer);

Assistans şirkəti – sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxs

ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

1. SIĞORTANIN SUBYEKTLƏRİ

1.1. Sığortalı bu müqavilə ilə müəyyən olunmuş sığorta haqqı məbləğini sığortaçıya ödəməyi, Sığortaçı isə sığortalıya məxsus qiymətli əşyaların daşınması zamanı onların hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin müqavilə şərtləri daxilində ödənilməsi məqsədilə sığortalamağı öhdəsinə götürür.

1.2. Qiymətli əşyalar dedikdə aşağıdakılar başa düşülür:

- Istənilən valyutada olan nağd pullar, qiymətli kağızlar (səhm, istiqraz, çek, şəhadətnamə, bono və s.), təminat məktubu, borc öhdəlikləri və s.;
- külçə və digər formada olan əlvan metallar, nəcib metallar, qiymətli daşlar və zinət əşyaları və s.;
- nadir və əntiq əşyalar, kolleksiyalar və s.;

1.3. Sığorta müqaviləsinə əsasən Sığortalılar dedikdə Sığortaçı ilə müqavilə bağlayan aşağıda qeyd olunan hüquqi şəxslər başa düşülür:

- Qiymətli əşyaların saxlamağa hüququ olan, AR Mərkəzi Bankı tərəfindən verilən lisenziyaya uyğun olaraq fəaliyyət göstərən bank və və digər kredit təşkilatları;
- Xüsusi avadanlıqla təchiz edilmiş nəqliyyat vasitələrində qiymətli əşyaların daşınmasını həyata keçirmək üçün səlahiyyətli orqanlar tərəfindən lisenziya verilmiş nəqliyyat-ekspeditor şirkətləri;
- Inkassasiya xidmətləri.

1.4. Müqaviləyə əsasən yalnız Sığortalıya məxsus risk və onun xeyrinə sığortalana bilər.

Hazırki sığortaya əsasən heç bir digər faydalanan, o cümlədən qiymətli əşyaların daşınması və saxlanması üçün etibar edilən, lakin müqavilə üzrə sığortalı sayılmayan bank və kredit təşkilatları, nəqliyyat-ekspeditor şirkətləri və ya inkassasiya xidmətləri hər hansı sığorta ödənişi almağa hüquqları yoxdur.

2. SIĞORTA SİNFİ VƏ SIĞORTA OBYEKTİ

2.1. Bu Qaydalara əsasən təqdim olunan sığorta məhsulu sığorta obyektinə görə əmlak sığortasına aid olan daşıma üsulundan asılı olmayaraq yükün zədələnməsi, korlanması, məhv olması, yaxud hər hansı formada itkisi nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan yüklərin (nəqliyyat) sığortası sinfinə aiddir.

2.2. Sığorta obyekti daşınan qiymətli əşyaların məhv olması və itkisi ilə bağlı Sığortalının AR-nın qanunvericiliyinə zidd olmayan əmlak mənafeyidir.

3. SIĞORTA RİSKLƏRİ

3.1. Bu qaydalara əsasən aşağıda aşağıdakı hadisələrin səbəb olduğu ziyan, zərər və xərclərə Sığorta Şirkəti tərəfindən təminat verilir:

3.1.1. Hər hansı səbəbdən maddi zərər və ya məhvolma, o cümlədən aşağıda qeyd olunan səbəblərlə əlaqədar olaraq:

- Yanğının təsiri olaraq (ildırım vurması, partlayış, yanğın və yanğınsöndürmə vasitələrindən istifadə etmə.);
- Xarici təsir (yol-nəqliyyat hadisələri, qiymətli əşyaların yüklənməsi/boşalması, xarici reklam vəsaitlərinin, elektrik xətləri direklərinin, ağacların, uçan obyektlərin və onların hissələrinin düşməsi və s.);
- Təbii fəlakətlər (fırtına, tufan, qasırğa, dolu, sel, zəlzələ);
- Üçüncü şəxslərin qeyri-qanuni hərəkətləri (oğurluq, soyğunçuluq, quldurluq, vandalizm və xuliqanlıq hərəkətləri);

3.1.2. Sığortalının əməkdaşları (rəhbər işçilərdən başqa), sığortalı sayılmayan qiymətli əşyaları daşıyan şirkətin və ya inkassasiya xidmətləri göstərən şirkətin əməkdaşlarının fırıldaq hərəkətləri;

Sığortalının rəhbər işçilərinə aşağıdakılar aid edilir:

- Baş direktor (direktor) və onun müavinləri qismində fərdi icraedici orqan;
- İdarə heyəti üzvləri (müdiriyyət) qismində kollegial icraedici orqan;

3.1.3. Sığorta hadisəsi aşağıdakı hallarda baş vermiş hesab edilir:

- Bu qaydaların 3.1.1. maddəsinə uyğun olaraq, hava nəqliyyat vasitəsi ilə daşıma zamanı sığorta qiymətli əşyaların daşınması yalnız ən azı iki mühafizəçi tərəfindən müşayiət edilməsi şərtilə qüvvə olmuş sayılır;
- Bu qaydaların 3.1.2. maddəsinə uyğun olaraq, zərərlər onların baş verməsindən 72 saat ərzində (qeyri-iş günləri: şənbə, bazar günləri, rəsmi bayramlardan başqa) aşkar edilibsə;

3.1.4. Bu qaydaların 3.1.2 maddəsində qeyd edilən risklərin sığortalanması yalnız 3.1.1 maddəsində qeyd edilən risklərin sığortası mövcud olarsa həyata keçirilə bilər.

4. SIĞORTA TƏMİNATINDAN İSTİSNALAR

4.1. Aşağıdakı hadisələrin səbəb olduğu ziyan, zərər və xərclərə sığorta təminatı verilmir:

4.1.1. Radioaktiv təsirin nəticəsi:

- Radiokativ çirklənmə zamanı yaranan radioaktiv şüalanma;
- Radioaktiv, zəhərli, partlayıcı və digər təhlükəli obyektlərin və s. mövcudluğu ;
- Nüvə parçalanması reaksiyasının istifadə ilə bağlı hər hansı silahın tətbiq edilməsi və s.;

4.1.2. Tətilçilərin, sahibkar tərəfindən bağlanmış müəssisə işçilərinin etiraz nümayişləri və ya tətil, qarışıqlıq və ya xalq hərəkatlarında iştirak edən şəxslərin hərəkətləri;

4.1.3. Tətil, müəssisənin sahibkar tərəfindən bağlanması (lokaut), qarışıqlıq və ya xalq hərəkatları;

4.1.4. Terroristlərin və ya siyasi məqsədlər güdən şəxslərin hərəkətləri;

4.1.5. Müharibə, vətəndaş müharibəsi, iğtişaş, qiyam, üsyan və bunların nəticəsində baş verən daxili qarışıqlıq,

4.1.6. Zəbtetmə, müsadirə, həbs, qadağa və ya əlindən alınma (qarət istisna olmaqla), onların nəticələri və ya onlara təşəbbüs;

4.1.7. Unudulub qalmış minalar, mərmilər, bombalar və digər hərbi sursatlarla toqquşmanın nəticəsi.

4.1.8. Qadağan edilmiş və ya gizli ticarət (qaçaqmalçılıq);

4.1.9. Sığortalının və ya onun işçilərinin qəsd hərəkətləri, etimaddan sui-istifadəsi və ya kobud səhvləri;

4.1.10. Sığortalanmış əmlakda gözlə ayırd eləmək mümkün olmayan çatışmazlıqlar və qüsurlar;

4.1.11. Sığortalanmış əmlakın təbii keyfiyyət və xüsusiyyətlərinin itməsi; normal temperaturun və ya temperaturun normal dəyişməsinin, baqaj havasının təsiri;

4.1.12. Sığortalanmış əmlaka göbələklər, gəmiricilər, həşəratlar tərəfindən vurulan ziyan;

4.1.13. Sığorta edilmiş əmlakın lazımi qaydada qablaşdırılmaması (qiymətli əşyalar plomblaşdırılmış, möhkəm bağlanmış kisələrdə daşınmalıdır);

4.1.14. Gecikmələr və müəyyən edilmiş daşıma müddətindən artıq gözləmələr;

4.1.15. Sığortalı tərəfindən daşınacaq qiymətli əşyanın miqdarı, dəyəri, alıcının ünvanı və bu kimi digər məlumatların sığortaçıya, nəqliyyat firmasına və ya poçt idarəsinə yarımçıq və ya səhv bildirilməsi;

4.1.16. Müvafiq idarələrin və ya daşıyıcının təlimatına və ya irəli sürdüyü şərtlərə əməl edilməməyi;

4.1.17. Qanunvericiliyə əsasən etibarsız sayılan saxta sənəd və təminat məktubları;

4.2. Aşağıda qeyd olunanların nəticəsində aşkar edilmiş zərər sığorta hadisəsi hesab edilmir və təminata daxil deyil:

4.2.1. Sənədlərə əsasən daşımaya təqdim olunmuşdan qabaq, eləcə də Sığortalıya çatdırıldıqdan sonra əmlaka dəyən zərər;

4.2.2. Fırıldaq hərəkətlər olmadığı halda inventarlaşma zamanı və təsərrüfat fəaliyyətinin analizi zamanı aşkar edilən çatışmamazlıqlar;

5. SIĞORTA TƏMİNATININ QÜVVƏYƏ MİNMƏ VƏ QÜVVƏDƏN DÜŞMƏ VAXTLARI

5.1. Sığorta təminatı, qiymətli əşyaların daşınma üçün nəqliyyat firmasının səlahiyyətli nümayəndəsinə, mühafizə altında həyata keçirilən daşımalarda isə, mühafizəni təmin edəcək şəxsə təhvil verilməsi ilə başlayır. Sığorta təminatının başlaması üçün qiymətli əşyaların, nəqliyyat şirkətinin səlahiyyətli nümayəndəsinə və ya mühafizəni təmin edəcək şəxsə öhdəlik və ya təhvil-təslim qəbzi ilə təhvil verilməsi zəruridir.

5.2. Sığorta təminatı, qiymətli əşyaların son təyinat məntəqəsində alıcıya və ya onun səlahiyyətli nümayəndəsinə (əlaqədar işçisinə) təhvil verildiyi zaman sona çatmış hesab olunur. Təhvil vermə vaxtının uzandığı hallarda, təminat müddəti qiymətli əşyaların son təyinat məntəqəsinə çatdırıldığı tarixdən hesablanmaqla üçüncü günün sonuna qədər davam edir.

5.3. Göndərilən qiymətli əşyaların hər hansı bir səbəbdən alıcıya təhvil verilə bilməməyi və ya alıcının həmin mallardan imtina etdiyi hallarda, sığorta təminatının müddəti razılaşdırılmış əlavə sığorta haqqının ödənilməsi şərtlə, həmin qiymətli əşyaların sığortalıya geri qaytarılmasına qədər davam etdirilə bilər.

6. SIĞORTA MƏBLƏĞİ VƏ AZADOLMA MƏBLƏĞİ

6.1. Sığorta məbləğinin sığorta dəyərinə bərabər olması əsasdır. Sığortalının daşınacaq qiymətli əşyaların nəqliyyat firmasına bildirdiyi məbləği bütövlükdə sığorta etdirməsi zəruridir.

6.2. Birja əməliyyatları üçün qiymətli əşyaların sığorta dəyəri sığortanın qüvvəyə mindiyi gün üçün və ya həmin ərazidə və ya ən yaxın ərazidəki birja kurs dəyəridir.

6.3. Digər sənəd və qiymətli əşyaların sığorta dəyəri sığorta müqaviləsinin bağlandığı ərazidə sığortanın hüquqi qüvvəyə mindiyi gün üçün müəyyən edilən kurs dəyəridir.

6.4. Sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsi etibarsız sayılır. Sığorta məbləği, sığorta dəyərindən az olarsa, sığorta ödənişi, sığorta məbləği ilə sığorta dəyəri arasındakı nisbətə uyğun olaraq ödənilir.

6.5. Müqavilə üzrə başqa cür razılaşdırılmamışdırsa sığorta məbləği aşağıdakı kimi hesablanır:

6.5.1. bir illik sığorta müddəti ərzində olan daşımalar üzrə:

$$S = N * C * D * R$$

Burada:
S - Sığorta dəyəri
N - Qiymətli əşyaları daşıyan xüsusi nəqliyyat vasitələrinin sayı;
C - Bir daşımanın orta dəyəri;
D - Qiymətli əşyaların bir nəqliyyat vasitəsi ilə daşınması üzrə həyata keçirilən bir ildə günlərin orta sayı
R – bir nəqliyyat vasitəsi ilə gündəlik daşınan reyslərin orta sayı.

6.5.2. Qiymətli əşyaların bir dəfəlik daşınması zamanı: daşıma zamanı siyahıda göstərilən qiymətlərə əsasən.

6.6. Əgər sığorta müqaviləsində nəzərdə tutulmuş sığotra məbləği sığorta dəyərini aşarsa, həmçinin bu cür hal vu bə ya digər əmlakın iki və ya daha çox sığortaçıda sığortalanması nəticəsində yaranarsa, sığorta müqaviləsi sığorta məbləğinin sığorta dəyərini aşan hissəsinə münasibətdə əhəmiyyətsizdir, lakin bu halda sığorta haqqının artıq ödənilmiş hissəsi qaytarılmır.

Əgər sığorta məbləğinin sığorta dəyərini aşması Sığortalının altdaması nəticəsidirsə, Sığortaçının sığorta müqaviləsinin etibarsız hesab edilməsini tələb etmək və bununla ona dəymiş zərərin əvəzinin ödənilməsini Sığortalıdan tələb etmək hüququ var.

6.7. Sığorta müqaviləsində zərərin Sığortaçı tərəfindən ödənilməyən hissəsi – azadolma məbləği qeyd edilə bilər. Azadolma nəzərdə tutularsa, onun növü, məbləği və tətbiq edilmə qaydaları xüsusi şərtlə müəyyən edilir.

7. SIĞORTA HAQQI VƏ SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ

7.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.

7.2. Sığorta haqqı, müqavilədə başqa hal nəzərdə tutulmazsa, müqavilə imzalandığı zaman və birdəfəlik ödənilir. Sığortaçının məsuliyyəti sığorta müqaviləsi imzalandığı andan başlayır.

7.3. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur.

8. SIĞORTA MÜDDƏTİ

8.1. Sığorta müqaviləsi aşağıdakı müddətlərə bağlana bilər:

- 1 il müddətinə;
- Qiymətli əşyaların bir dəfəlik daşınması üzrə təyin olunmuş müddət.

8.2. Başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsi sığorta haqqının ödənildiyi (hesaba köçürüldüyü) gün qüvvəyə minir.

9. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI QAYDASI

9.1. Bu Qaydalara əsasən Sığortaçı Sığorta müqaviləsini Sığortalı ilə bağlayır.

9.2. Sığorta müqaviləsini bağlamaqdan ötrü Sığortalı özünə məlum olan, Sığortaçının sığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları özündə əks etdirən, müəyyən olunmuş formada yazılı ərizəni doldurarak Sığortaçıya təqdim etməlidir. Bu ərizə Sığorta müqaviləsinin tərkib hissəsi hesab edilir.

9.3. Sığortalının ərizəsində aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- Növləri və dəyərləri gösətrilməklə daşınan qiymətli əşyaların siyahısı;
- Daşımaların sayı və həcmi;
- Qiymətli əşyaların daşınması üçün istifadə olunan nəqliyyat vasitələrinin siyahısı;
- Daşımalar üçün icazəsi olan əməkdaşların vəzifələri də daxil olmaqla siyahısı;
- Qiymətli əşyaları göndərən və alan şəxslər barədə məlumat;
- Qiymətli əşyaların daşınması zamanı təhlükəsizliyin səviyyəsi barədə məlumat;
- Daşımalar üzrə martşrut;
- Riskin dərəcəsini qiymətləndiirməyə imkan verən digər məlumat və sənədlər.

9.4. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:

- Tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsini tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;
- Bu Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

9.5. Sığorta müqaviləsi tərtib olunduğu halda, sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

9.6. Sığorta müqaviləsi bağlanarkən Sığortalı özünə məlum olan və Sığortaçının sığorta müqaviləsindən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.

9.7. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan Sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

9.8. Sığorta obyekti bir neçə sığortaçıda sığortalandığı halda, sığortaçılar Sığortalı qarşısında birgə məsuliyyət daşıyırlar.

10. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ VƏ XİTAM VERİLMƏSI QAYDASI

10.1. Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.

10.2. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

10.1.1. Sığorta predmeti artıq mövcud olmadıqda;

10.1.2. Qanunvericilikdə müəyyən edilmiş hallar hallar istisna olmaqla, Sığortalı fiziki şəxs öldükdə və ya Sığortalı hüquqi şəxs ləğv olunduqda:

10.1.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

10.1.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

10.1.5. Sığorta marağı artıq mövcud olmadıqda;

10.1.6. Sığortalı sığorta haqqını qanunvericilikdə və Sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

10.1.7. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.

11. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏ İLƏ BAĞLI XƏBƏRDAR ETMƏ

11.1. Bu Qaydaların 10.2-ci bəndində göstərilən hallarda Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi üçün əsas olan şərait yarandıqda, Sığorta müqaviləsinə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

11.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 (otuz) gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, üç aydan az müddətə bağlanmış olduqda isə 5(beş) iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir. Belə bildiriş Sığorta müqaviləsinin ləğvi tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının Sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən ləğv edilmiş sayılır. Bu bildirişin poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi ücün kifayətdir və Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən və vaxtdan etibarsız sayılacaq.

12. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

12.1. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərclərini çıxmaqla Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır;

12.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqqını bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının Sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərcləri çıxılmaqla, Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını qaytarır. İnzibati xərclər müqavilə üzrə daxil olan sığorta haqqının 25%-ni təşkil edir.

12.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

12.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 12.1-ci və 12.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

12.5. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında Sığortaçı bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və (və ya) depozit sığorta haqqının qısamüddətli hissəsini saxlamaq hüququna malikdir.

13. RİSKİN MAHİYYƏTİNİN DƏYİŞMƏSİ VƏ YA BAŞ VERMƏ EHTİMALININ ARTMASI.

13.1. Sığorta təminatı, daşımanın sığorta müqaviləsində göstərilən formada və marşrut üzrə həyata keçirilməsi şərti ilə etibarlıdır.

13.2. Sığortalı, riskin mahiyyətinin dəyişməsinə və ya hadisənin baş vermə ehtimalının artmasına səbəb ola biləcək hər hansı bir vəziyyətin mövcudluğunu öyrənən kimi, dərhal bu haqda sığortaçıya məlumat verilməsinə görə məsuliyyət daşıyır.

13.3. Bu məlumat vermə öhdəliyinin sığortalı tərəfindən yerinə yetirilmədiyi hallarda, sığortaçı ödəniş vermək məsuliyyətindən azad olur.

Bu zaman aşağıdakı hallar istisna edilir:

- riskin mahiyyətinin dəyişməsi və ya hadisənin baş vermə ehtimalının artması sığortalının iradəsi xaricində baş verdikdə;
- məlumat verilməməyinin bilərəkdən edilmədiyi və ya kobud səhvlə əlaqədar olmadığı, eləcə də riskin mahiyyəti dəyişməsəydi də, hadisənin baş verəcəyinin təsdiqləndiyi hallarda.

13.4. Sığortaçının, riskin baş vermə ehtimalının artması ilə əlaqədar əlavə sığorta haqqı almaq hüququ var.

14. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

14.1. Sığortaçının aşağıdakı vəzifələri var:

14.1.1. Qaydalar da daxil olmaqla sığorta şəhadətnaməsini müəyyən edilmiş müddətdə vermək;

14.1.2. Bu qaydalarla nəzərdə tutulmuş hallarda sığorta müqaviləsinə dəyişikliklər etmək;

14.1.3. Sığorta hadisəsinin baş verdiyi zaman sığorta müqaviləsi ilə müəyyən edilmiş müddətdə sığorta ödənişini həyata keçirmək;

14.1.4. Sığorta qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

14.2. Sığortalının aşağıdakı vəzifələri var:

14.2.1. Sığorta müqaviləsi ilə müəyyən edilmiş vaxtda sığorta haqqını ödəmək;

14.2.2. Sığorta müqaviləsi bağlanarkən, sığorta müqaviləsinin məzmununa daxil edilməli olan, həmçinin özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən, habelə müqavilə bağlandıqdan sonra sığorta riskinin dəyişməsi ilə bağlı bütün hallar barədə, o cümlədən qüvvədə olan və ya sonradan bağlanan digər sığorta müqavilələri barədə, bu müqavilələr üzrə baş vermiş sığorta hadisələri və həyata keçirilmiş sığorta ödənişləri barədə məlumatları və müvafiq sənədləri sığortaçıya təqdim etmək;

14.2.3. Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.

14.2.4. Sığorta hadisəsi baş verən zaman:

- Bu Qaydalar əsasında bağlanmış Sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi barədə Sığortalı, yaxud Faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir;
- Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur. Sığortalının belə tədbirləri görməməsinin birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Belə tədbirlər həyata kecirilərkən Sığortalı Sığortacının verdiyi bütün təlimatları yerinə yetirməyə borcludur.
- Sığorta müqaviləsində, yaxud şəhadətnaməsində sığorta hadisəsinin baş verməsi barədə məlumat verməyin müddəti və (və yaxud) metodu göstərilmişdirsə, bu müəyyən olunmuş müddətdə və həmin metodla həyata keçirilməlidir.
- Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir.
- Sığortalı Sığortaçıya araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir, yoxlama üçün mühasibatlıq kitablarını, hesabları, hesab-fakturaları, vauçerləri, qeydləri və sənədlərin orijinalları itdiyi halda onların təsdqilənmiş nüsxələri;
- Sığortaçıya sənədlərdən qeydlər götürməyi və onların nüsxələrini çıxarmağı icazə verməlidir.

14.3. Sığortaçının aşağıdakı hüquqları var:

14.3.1. Müqavilə bağlayarkən:

- Daşınan qiymətli əşyalara baxış keçirmək, ehtiyac yarandığı təqdirdə onların həqiqiliyini müəyyən etmək üçün ekpertiza təyin etmək.
- Qiymətli əşyaların daşınması üçün istifadə olunan nəqliyyat və təhlükəsizlik vasitələrinə baxış keçirmək;
- Qiymətli əşyaların daşınması ilə əlaqədar olan personalla tanış olmaq;

14.3.2. Müqavilə bağlandıqdan sonra Sığortalının qəsdən sığorta obyekti haqda yalnış məlumat verməsi aşkar olunarsa, Sığortaçı müqaviləni etibarsız hesab edə bilər.

14.3.3. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı :

- Sığorta müqaviləsinə müvafiq dəyişikliklər edə bilər;
- əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;
- bu şərait yarandıqdan sonra Sığorta müqaviləsinə xitam verə bilər.

14.3.4. Sığorta hadisəsi zamanı sığorta hadisəsinin baş verdiyi şəraiti yoxlamaq məqsədilə vaxt və məkan müəyyən edə bilər.

14.4. Sığortalının Sığortaçıdan riskin təkrarsığortalanmasını təsdiq edən sənədləri tələb etmək hüququ var.

15. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ

15.1. Qiymətli əşyaların itkisi və zədələnməsi ilə bağlı sığorta hadisəsi baş verdiyi an Sığortalı dərhal, bu, mümkün olmadıqda isə 3 gündən gec olmamaq şərtilə Sığortaçını yazılı formada xəbərdar etməlidir.

Sığortalı aşağıdakı sənədlərlə yanaşı zərərin baş verdiyi şəraiti və səbəbləri sübut edən bütün informasiyanı Sığortaçıya təqdim etməlidir:

- Sığortalanmış əmlakda sığorta marağını sübüt etmək üçün – yol vərəqələri, hesab və fakturalar, qiymətli əşyaların gəlib çatmaması haqqında qiymətli əşyaları alanın qeydi olan yük qəbzləri;
- Sığorta hadisəsini sübüt etmək üçün: təhvil-təslim sənədləri, zərər barədə yükalanın və daşıyanın qeydləri olan yol vərəqələri, səlahiyyətli orqanlardan (yanğın baş verdiyi halda FHN-dən, oğurluq, quldurluq, soğunçuluq halında DİN-dən və ya müvafiq qürumlardan) əldə edilmiş rəsmi sənədlər;

- Baş vermiş zərərlə əlaqədar tələb olunan sığorta tələbinin həcmini sübüt etmək üçün: Sığortaçının nümayəndəsi və ya Sığortaçının razılığı əsasında digər hüquqi şəxs tərəfindən qiymətli əşyalara baxış keçirilməsi barədə akt, ekspertiza aktları və zərərin həcmini müəyyən edən digər sənədlər.
- Sığortalının ödəniş tələbnaməsi;
- Sığorta hadisəsinin mahiyyəti ilə əlaqədar olan digər sənədlər.

15.2. Sığorta ödənişinin həcmi daşınan qiymətli əşyaların siyahısına uyğun olaraq hesablanır və aşağıda sadalananlardan çox ola bilməz:

- Pul nişanları üçün: sığorta ödənişi həyata keçirilən tarixlə müqavilə bağlanan tarix arasında olan valyuta kursundakı enib-qalxmaları nəzərə almadan daşınan pul vəsaitlərinin məbləği;
- Qiymətli kağızlar üçün: səhmlərin, istiqraz vərəqələrin və s.-in nominal dəyəri;
- Borc öhdəlikləri üçün: öhdəliyin vaxtında yerinə yetirilmədiyi üçün faiz və cərimələri nəzərə almadan müqavilə bağlanan günə olan borc öhdəliyinin məbləği;
- Antikvar sayılmayan külçə və digər formada olan əlvan metallar, nəcib metallar, qiymətli daşlar və zinət əşyaları və s. üçün: müqavilənin bağlandığı günə dövlət ticarəti olan zərgərlik mağazalarında movcud olan analoji qiymətli əşyaların qiymətlərindən yüksək olmamaq şərtilə, alqı-satqı müqaviləsində müəyyən edilmiş qiymətlər;
- nadir və əntiq əşyalar, kolleksiyalar və s. üçün: Sığortaçının ekspertinin qiymətləndirməsinə əsasən bazar (hərrac) qiyməti;

15.3. Sığortalı tərəfindən müvafiq sənədlərin təqdim olunması vaxtından etibarən 15 iş günü ərzində sığortaçı sığorta ödənişinin verilməsinin, yaxudsığorta ödənişini verməkdən imtina olunması haqqında qərar qəbul edir.

15.4. Sığorta ödənişi aşağıdakı qaydada verilir:

15.4.1. Sığortalanmış qiymətli əşyalarının bərpası mümkün olmayan hissəsinin tam məhvolması zamanı sığorta ödənişi daşınan qiymətli əşayaların dəyəri həcmində xilas edilmiş qiymətli əşyaların dəyəri çıxılmaqla həyata keçirilir.

15.4.2. Xəbərsiz yoxa çıxma zamanı: qiymətli əşyaların nəqliyyat vasiyəsi ilə birgə xəbərisz yoxa çıxması baş veərəsə və əgər bu sığorta hadisəsi müqavilənin qaydalarına uyğun olaraq baş vermişsə, bu zaman bu hala tam məhvolma kimi yanaşılır. Nəqliyyat vasitəsinin yoxa çıxması onun təyinat məntəqəsinin çatması planlaşdırılan gündən 60 gün müddətinə qədər gəlib çatmadıqda itmiş hesab edilir.

15.4.3. Qiymətli əşyaların zədələnməsi zamanı: Qiymətli əşyaların hissəsinin və ya hamsının zədələnməsi zamanı qiymətli əşyaların həqiqi dəyəri və zədlənmiş halında olan dəyəri əsas götürülür.

16. SUBROQASİYA HÜQUQUNUN VERİLMƏSİ

16.1.1. Subroqasiya hüququ, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş Sığortaçının istifadə etmək hüququdur.

16.1.2. Sığortalıya zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq sığorta ödənişini vermiş Sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

16.1.3. Sığortalı sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə Sığortaçını təmin etməlidir.

16.1.4. Sığortalı zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

16.1.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış digər sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə Sığortalı qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

16.1.6. Əgər Sığortalı vurulmuş zərərə görə üçüncü şəxsdən (şəxslərdən) zərərin əvəzini almışdırsa, Sığortaçı yalnız verilməli olan sığorta ödənişi məbləği ilə Sığortalının üçüncü şəxsdən (şəxslərdən) aldığı məbləğ arasındakı fərqi ödəyir.

17. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

17.1. Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilən zərərlərin bu sığorta ilə əvəzi ödənilmir və sığorta ödənişinin verilməsindən imtina edilir:

17.1.1. Sığorta predmeti və (və ya) sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda ;

17.1.2. Sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

17.1.3. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

17.1.4. Sığortalının dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, Sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

17.1.5. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi;

17.1.6. Sığortalının zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərər vuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;

17.1.7. baş vermiş hadisənin Sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

17.1.8. sığorta hadisəsinin sığorta haqqının tam və ya onun ilk hissəsinin ödənilməsi müddəti başa çatdıqdan sonra baş verməsi halında sığorta haqqı ödənilməmiş olduqda;

17.1.9. bu Qaydalarda nəzərdə tutulan mühüm şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq Sığortalının Sığorta müqaviləsində nəzərdə tutulan belə şərtlərə əməl etməməsi;

17.1.10. yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, Sığortalı tərəfindən Sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda Sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır;

17.1.11. Sığortalının, həmçinin onun nümayəndəsinin qəsdi və ya kobud ehtiyatsızlığı;

18. XOŞ MƏRAMLILIQ ÖHDƏLİYİ

18.1. Tərəflər sığorta müqaviləsi imzalandığı və hüquqi qüvvədə olduğu müddət ərzində xoş məramlılıq prinsipinə əməl etməlidirlər.

18.2. Sığortalı, marşrutun seçildiyi və daşıma müddətinin müəyyən edildiyi zaman, nəqliyyat şirkətinin və ya mühafizəçi şəxslərin seçilməsində diqqətli və ehtiyatlı bir mal sahibi kimi hərəkət etməlidir.

18.3. Göndərilən qiymətli əşyalarla əlaqədar alıcıya qabaqcadan məlumat verilməli, mallar müəyyən edilmiş müddət ərzində təhvil verilmədikdə isə, alıcı dərhal bu haqda satıcıya məlumat verməlidir.

18.4. Qiymətli əşyaların son təyinat məntəqəsinə müəyyən edilmiş müddət ərzində çatdırılmadığı hallarda, sığortalı, nəqliyyat firmasına məlumat verərək lazımi tədbirlərin həyata keçirilməsini təmin etməyə və vəziyyətin sığortaçıya bildirilməsinə görə məsuliyyət daşıyır.

18.5. Sığortalı və yaxud sığorta müqaviləsini imzalamaq üçün onun tərəfindən təyin edilən şəxslər, müqavilənin əsasını təşkil edən və onlara bəlli olan bütün məlumatları, sığorta müqaviləsi imzalanmamışdan əvvəl sığortaçıya bildirməyə görə məsuliyyət daşıyırlar. Bu şərtə əməl edilməməyi xoş məramlılıq prinsipinin pozulması kimi qəbul olunur. Sığortalı və yaxud sığorta müqaviləsini imzalamaq üçün onun tərəfindən təyin edilən şəxslər, özlərinin normal fəaliyyətləri əsnasında bilməli olduqları bütün məlumatları bilmiş hesab edilirlər. Müqavilənin imzalanıb imzalanmamağı və ya şərtlərin dəqiqləşdirilməsi üçün qəbul olunacaq qərara təsir edən bütün amillər, riskin qiymətləndirilməsi baxımından əhəmiyyət daşıdıqlarına görə müqavilənin əsasını təşkil edən amillərdən hesab edilir və bu hallar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun müddəaları ilə tənzimlənir.

19. MƏLUMAT VƏ XƏBƏRDARLIQLAR

19.1. Sığortalının məlumat və xəbərdarlıqları, sığortaçıya və ya sığorta müqaviləsinin imzalanmasına vasitəçilik edən agentliyə, sifarişli məktub vasitəsilə bildirilir.

19.2. Sığortaçının məlumat və xəbərdarlıqları sığortalının sığorta şəhadətnaməsində göstərilən ünvanına, bu ünvan dəyişmişsə, sığortaçıya və ya sığorta müqaviləsinin imzalanmasına vasitəçilik edən agentliyə bildirilən son ünvana eyni formada çatdırılır.

19.3. Tərəflərə, imza etdirmək şərti ilə, şəxsən təqdim olunan məktublar və yaxud teleqraf, teleks və ya faksla bildirilən xəbərdarlıq və məlumatlar da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

20. KOMMERSİYA VƏ İŞ SİRLƏRİNİN QORUNMASI

20.1. Sığortaçı və ya onun səlahiyyətli nümayəndələri bu müqavilənin bağlanması ilə əlaqədar sığortalıya aid öyrəndikləri bütün kommersiya və iş sirlərinin gizli saxlanmamağı nəticəsində sığortalıya dəyəcək zərərə görə məsuliyyət daşıyırlar.

21. MÜBAHİSƏLƏRİN HƏLLİ

21.1. Bu sığorta müqaviləsi ilə əlaqədar bütün fikir ayrılıqları, sığortaçının yerləşdiyi ərazidə bu işə səlahiyyəti olan yerli məhkəmələr tərəfindən, Azərbaycan Respublikası qanunlarına uyğun olaraq həll edilir.

22. XÜSUSİ ŞƏRTLƏR

22.1. Tərəflərin qarşılıqlı razılığına əsasən bu əsas şərtlərə, əlavə ediləcək xüsusi şərtlər hüquqi baxımdan əsas şərtlərdən üstün hesab edilir.